# ATƏT-in Minsk qrupu tezliklə ləğv ediləcək

## Bu, Azərbaycanın diplomatik qələbəsinin beynəlxalq müstəvidə rəsmiləşdirilməsi olacaq

Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanan bəyannamə regionda tarixi bir mərhələnin başlanğıcını qoydu.

Bu bəyannamə Cənubi Qafqazda yeni reallıqların hüquqi və siyasi təsdiqi olmaqla yanaşı, münaqişənin əsas beynəlxalq vasitəçilik mexanizmi olan ATƏT-in Minsk qrupunun da uğursuz missiyasını sonlandırdı.

Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, hər iki ölkənin liderlərinin birgə müraciəti əsasında Minsk qrupunun və ona bağlı təsisatların buraxılması istiqamətində proses başladılıb. Bu addım həm simvolik, həm də praktiki baxımdan sülhün möhkəmlənməsinə xidmət edir və uzun illər davam edən nəticəsiz vasitəçilik dövrünün hüquqi baxımdan da bitdiyini təsdiqləyir. "ATƏT-in Minsk qrupunun buraxılması proseduru formal olaraq, ATƏT çərçivəsində konsensus əsasında qərar qəbulunu tələb edir. Proses ATƏT-in Daimi Şurasında müzakirə olunur və daha sonra Nazirlər Şurasında təsdiqlənir. Məlum olduğu kimi, həm Azərbaycan, həm də Ermənistan ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı rəsmi mövqelərini ifadə etdikləri üçün prosesin hər hansı bir formada mübahisələndirilməsi mümkün deyil. Bu baxımdan prosesin qısa zaman çərçivəsində yekunlaşması mümkündür", - deyə o bildirib.

Deputat qeyd edib ki, ATƏT-in Minsk qrupunun buraxılması prosesi yalnız texniki bir addım deyil, regionun geosiyasi reallıqlarının tam təsdiqi və Azərbaycanın diplomatik-hərbi qələbəsinin beynəlxalq müstəvidə rəsmiləşdirilməsi kimi qiymətləndirilməlidir. Bu qurumun yaradılmasında məqsəd münaqişənin sülh yolu ilə həlli idi, lakin 30 ilə yaxın müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, mandatının icrası istiqamətində heç bir real addım atılmadı. Minsk qrupu uzun illər ərzində sadəcə formal bəyanatlar verməklə kifayətləndi, nəticədə vasitəçilik mexanizmi etimadını itirdi və yararsız bir təsisata çevrildi.

E.Mirzəbəyli vurğulayıb ki, Azərbaycan isə ötən illər ərzində həm siyasi, həm iqtisadi, həm də hərbi müstəvidə gücünü artıraraq 2020-ci ildə baş vermiş 44 günlük müharibə ilə öz ərazi bütövlüyünü təmin edib: "Bu tarixi qələbə yalnız işğala son qoymadı, həm də beynəlxalq hüququn prinsiplərini bərpa etdi. Beləliklə, Minsk qrupu üçün nəzərdə tutulan mandat reallıqda Azərbaycanın öz iradəsi ilə icra olundu. Ermənistanın kapitulyasiyası, ardınca sülh gündəliyinə keçid və nəhayət, Vaşinqtonda imzalanan bəyannamə bu reallığın siyasi təsdiqi oldu. Bu baxımdan Minsk qrupunun buraxılması Azərbaycanın əldə etdiyi nəticələrin məntiqi davamıdır. Əgər münaqişə artıq mövcud deyilsə, vasitəçiyə də ehtiyac yoxdur. Həm Bakı, həm də İrəvanın ATƏT-ə ünvanladığı birgə müraciət isə onu göstərdi ki, bu qərar tərəflərin siyasi iradəsi və sülhə sadiqliyi ilə bağlıdır. Əslində, Minsk qrupunun ləğvi regionda yeni təhlükəsizlik arxitekturasının formalaşması, vasitəçi asılılığının aradan qalxması və birbaşa dialoqun ön plana çıxması deməkdir".



Deputat bildirib ki, nəticə etibarilə, ATƏT-in Minsk qrupunun buraxılması Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməsinin beynəlxalq təsdiqidir. Bu, həm də göstərir ki, 30 il ərzində nəticə verməyən vasitəçilik mexanizmləri yerini reallıqlar üzərində qurulan praqmatik siyasətə verir. Bu baxımdan Minsk qrupunun buraxılması, eyni zamanda beynəlxalq diplomatiyada presedent xarakteri daşıyır. Çünki bu, böyük dövlətlərin həmsədrlik etdiyi mexanizmin faktiki nəticəsizlik fonunda tarixi funksiyasını itirməsini və prosesin regional və qlobal maraqlar balansına uyğun şəkildə yenidən formatlaşdırılmasını göstərir. Azərbaycanın diplomatik qələbəsi yalnız milli maraqların təmin olunması ilə məhdudlaşmır, həm də beynəlxalq münasibətlər sistemində yeni yanaşmaların formalaşmasına xidmət edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 29 avqust (№182).- S.3.